# 18 oktyabr – Dövlət Müstəqilliyi günü

№ 42 (985) 19-25 oktyabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “Biz gələcəkdə də təhlükəsizliyin möhkəmləndirilməsi və risklərin azaldılması işinə töhfəmizi verməyə hazırıq”



Azərbaycan Prezidenti bu sözləri Soçidə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasındakı çıxışında deyib.

Oktyabrın 11-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

İclasın gündəliyinin kifayət qədər zəngin olduğunu deyən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bildirdi ki, burada MDB çərçivəsində qarşılıqlı əlaqələrin gələcəkdə möhkəmləndirilməsi yolları müzakirə olunacaq, əməkdaşlığın səmərəliliyinin artırılması istiqamətində fikir mübadiləsi aparılacaq. Rusiya Prezidenti vurğuladı ki, iclasda əsas diqqət ənənəvi olaraq iqtisadi, ticari və investisiya qoyuluşu sahələrində, həmçinin humanitar sahədə əlaqələrin inkişafına yönələcək.

Prezident Vladimir Putin qarşılıqlı maraqlara əsaslanan yeni iri layihələrin həyata keçirilməsi üçün bütün imkanların mövcud olduğunu vurğuladı, görüşün mədəniyyət, təhsil, elm, turizm sahələrində təcrübə mübadiləsinin genişləndirilməsinə təkan verəcəyinə əminliyini ifadə etdi.

Sonra MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev qeyd etdi ki, iclasın gündəliyi 16 məsələdən ibarətdir. Təqdim olunan sənədlərin layihələri ekspertlər tərəfindən araşdırılıb, ölkələrin nümayəndələri ilə razılaşdırılıb. İqtisadi sahəyə aid sənədlər isə MDB İqtisadiyyat Şurası tərəfindən təsdiq olunub. Prezident İlham Əliyev iclasda çıxış etdi.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı:**

- Yenidən Rusiyada, Soçidə olmağıma şadam. Əvvəlcə demək istərdim ki, Azərbaycan ənənəvi olaraq MDB-nin işində iştirak etməyə çox böyük əhəmiyyət verir, bu təşkilatın fəal üzvüdür və əmindir ki, MDB-nin böyük gələcəyi var. Bu məkan bizə müntəzəm surətdə fikir mübadiləsi aparmaq imkanı verir.

Mən çıxışımda əsasən humanitar xarakterli məsələlərə toxunmaq istərdim. Azərbaycan beynəlxalq humanitar əməkdaşlıqda mühüm rol oynayır. Bizim ölkədə müntəzəm surətdə beynəlxalq xarakterli mühüm tədbirlər keçirilir. Onların arasında Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında keçirilən və artıq ənənə halı almış Bakı Beynəlxalq Humanitar Forumunu xüsusi qeyd etmək istərdim. Deyə bilərəm ki, bu Forum müəyyən mənada nadir, əsasən humanitar əməkdaşlıq, konfessiyalararası dialoq, sivilizasiyaların dialoqu ilə bağlı məsələlərə diqqət yetirən tədbirə çevrilib. Azərbaycanda həm də mütəmadi olaraq Mədəniyyətlərarası Dialoq üzrə Beynəlxalq Forum keçirilir. Bu Forumun gündəliyi də Bakı Humanitar Forumunun gündəliyi ilə təxminən eynidir. Beləliklə, Azərbaycan hər il bu mövzularda diskussiyalar üçün məkana çevrilir. Düşünürəm ki, multikulturalizm, konfessiyalararası dialoq ilə bağlı məsələlər üzərində diqqətin cəmləşdirilməsinə yönəlmiş səylərin birləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Həmçinin ötən il Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilib. Beləliklə, bizim ölkəmiz humanitar xarakterli məsələlərin müzakirəsi üzrə dünya mərkəzlərindən biri kimi artıq özünü tanıdıb.

Bizim indiyə qədər keçirdiyimiz və keçirməkdə olduğumuz idman tədbirlərini, xüsusən 2015-ci ildə Birinci Avropa Oyunlarını və bu il IV İslam Həmrəyliyi Oyunlarını da bu məsələlərə aid etmək olar. İştirakçı ölkələrin ümumi sayı 100-dən çox idi. Bu Oyunlar həm də mədəniyyətlərarası, konfessiyalararası dialoqun yaxşı formatı oldu. İki il ərzində eyni şəhərdə həm Avropa Oyunlarının, həm də İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bizim iradəmizi, mədəniyyətlərarası və dinlərarası dialoqa Azərbaycanın töhfəsini bir daha təsdiq edir.

Turizm ilə bağlı məsələlər xüsusən valyuta mədaxilləri müəyyən dərəcədə azalmış ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir. Bunlar neft-qaz resurslarına malik olan ölkələrdir. Mən deyərdim ki, turizm ixracın vacib istiqamətidir və burada, bizim bu məkanda turizmin inkişafı, müəyyən birgə turizm marşrutları məsələlərinin müzakirəsi də çox böyük əhəmiyyət kəsb edir.

Qeyd etmək istədiyim sonuncu mövzu təhlükəsizliyin möhkəmləndirilməsi məsələləri ilə bağlıdır. Biz şadıq ki, Azərbaycan bu istiqamətdə də risklərin azaldılması üçün imkan yaradır. Xüsusi qeyd etmək istərdim ki, Rusiya və ABŞ ordularının baş qərargah rəislərinin birinci görüşü Bakıda keçirilib. Biz şadıq ki, bu görüşün keçirilməsi üçün bizim ölkəmiz seçilib. Biz məkan təqdim etdik, lakin belə bir görüşün Azərbaycanda keçirilməsi faktının özü, əlbəttə, bizi sevindirir və həm də risklərin azaldılması məsələsində Azərbaycanın oynadığı rolu göstərir. Rusiyanın Baş Qərargah rəisinin və NATO-nun hərbi komandanlığının birinci görüşü də Bakıda keçirilib. Biz gələcəkdə də təhlükəsizliyin möhkəmləndirilməsi və risklərin azaldılması işinə töhfəmizi verməyə hazırıq.

* * * * *

Oktyabrın 11-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Sonda çıxış edən Rusiya Prezidenti Vladimir Putin siyasi dialoqun, təhlükəsizlik, iqtisadiyyat sahələrində əməkdaşlığın genişləndiyini bildirmiş, bu ilin əvvəlindən qarşılıqlı ticarət dövriyyəsinin 25 faiz artdığını qeyd etmişdir.

Daha sonra sənədlərin imzalanması mərasimi olmuşdur. Ümumilikdə, qurumun fəaliyyəti ilə bağlı 18 sənəd imzalanmışdır.

## Cenevrədə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən Azərbaycan və Ermənistan prezidentlərinin Cenevrədə təşkil edilmiş görüşünə gəlib.



Oktyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Prezidenti Serj Sarkisyan arasında görüş keçirilib.

Görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi iştirak ediblər.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına səfəri başa çatıb.



# Azərbaycanla Bolqarıstan arasında gələcək əməkdaşlıq üçün çox yaxşı imkanlar açılacaq



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin oktyabrın 13-də rəsmi qarşılanma mərasimi olub.

Oktyabrın 13-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev və xanımı Desislava Radeva ilə görüşü olub. Görüşdə ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi, humanitar, energetika sahələrində və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilmişdir. Bolqarıstan Prezidentinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunmuşdur. Ölkələrimiz arasındakı əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulanmışdır.

* * * * *

Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Dövlət başçıları görüşdə çıxış etmişlər.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV demişdir:**

- Əminəm ki, bölüşdüyümüz ideyalar ölkələrimiz arasında daha geniş əməkdaşlığa yol açacaq. Siyasi və iqtisadi sahələrdə əməkdaşlığın səviyyəsindən məmnunuq. Lakin əminəm ki, iqtisadi sahədəki potensialımız bu gün mövcud olan potensialdan daha üstündür. Bu cür yaxşı siyasi münasibətlərə malik olmaqla yanaşı, biz ticarət, investisiya sahələrinə və digər sahələrə də diqqət yetirməliyik. Nəticədə tərəfdaşlığımız daha da genişlənəcək və şaxələnmiş olacaq. Bolqarıstan bizim üçün çox sıx tərəfdaşdır, dost ölkədir. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində də çox fəal əməkdaşlıq edirik. Səfəriniz bir daha göstərir ki, biz yaxın dostuq və əməkdaşlığımız uğurla davam edəcək.

* * * * *

Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mətbuata bəyanatlarla çıxış ediblər.

* * * * *

Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından ölkəmizdə rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin və xanımı Desislava Radevanın şərəfinə rəsmi ziyafət verilb.

# Azərbaycanın ixracı idxalını 4,4 milyard üstələyib

2017-ci ilin doqquz ayında qeyri-neft iqtisadiyyatı 2,5%, qeyri-neft sənayesi 3,1%, kənd təsərrüfatı 2,8%, xarici ticarət dövriyyəsi 7% artmış, müsbət saldo 4,4 mlrd. ABŞ dolları olmuşdur.

Bunu İqtisadiyyat Nazirliyinin struktur bölmələrinin və tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə keçirilmiş geniş kollegiya iclasında İqtisadiyyat naziri, Kollegiyanın sədri Şahin Mustafayev vbildirib.

Bu dövrdə valyuta ehtiyatlarımız 4,5 milyard dollar artaraq 42 milyard ABŞ dolları təşkil etmişdir.



# Pambıq planında təhvil 100 min tona yaxınlaşdı



Oktyabrın 16-dək pambıq qəbulu məntəqələrinə ölkə üzrə 94 min 81,89 ton məhsul təhvil verilib. Hazırda pambıq yığımı davam edir. Xatırladaq ki, 2016-cı ildə, ümumilikdə, 88 min 596 ton pambıq yığılmışdı. Dövlət Statistika Komitəsindən bildiriblər ki, oktyabrın 14-15-də 6165,80 ton pambıq tədarük olunub.

Pambıq tədarükündə əvvəlki kimi Saatlı rayonu öndədir. Rayon pambıqçıları indiyədək məntəqələrə 15426,70 ton məhsul təhvil veriblər.

Biləsuvarda 10925,43 ton, Sabirabadda 9308,80 ton pambıq tədarük edilib.

2017-ci ildə 250-300 min ton pambıq tədarükü hədəflənir.

# 10 min hektarda 3 aqropark yaradılıb

Kürdəmirdə "Şirvan" massivində 6150 hektar, Muradxan-Pirli massivində isə 4500 hektar sahənin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçün Kür çayı sahilində nasos stansiyaları, dəmir-beton qurğular tikilir, kanallar çəkilir. Rayonda təyinatı dəyişdirilən 10650 hektar torpaq sahəsində artıq 3 aqropark yaradılıb.

Bunu rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov bildirib.



Bu sahələrdə meliorasiya işlərinin aparılması, müasir suvarma sistemlərinin qurulması istiqamətində tədbirlər görülür.

"Qlobal Aqro" MMC tərəfindən dənli bitkilərin saxlanılması üçün 27 min tonluq anbarın, "Smart" dəyirmanın, yağ və yem emalı zavodlarının, toxum emalı müəssisəsinin tikilməsi nəzərdə tutulub. Hazırda 9 min tonluq anbar istifadəyə verilib, kommunikasiya və digər quraşdırma işləri davam etdirilir. Bu müəssisənin tam işə düşməsi yüzlərlə yeni iş yerinin açılmasına imkan verəcək.

# Azərbaycan ABŞ-da ticarət evi açacaq

Azərbaycan ABŞ-da ticarət evi açmaq imkanlarını nəzərdən keçirir.

Bunu iqtisadiyyat nazirinin müavini Sahil Babayev deyib.

O qeyd edib ki, bu qərar gələcəkdə qəbul edilə bilər:

"Hər şey Birləşmiş Ştatlarla əmtəə dövriyyəmizin həcmindən və dinamikasından asılıdır. Biz təhlil aparmağa davam edirik və əmtəə dövriyyəsinin uğurla genişləndiyi və müsbət dinamika nümayiş etdirdiyi ölkələrdə ticarət evlərinin yaradılması üzərində işləyəcəyik".

Xatırladaq ki, artıq Belarusda Azərbaycan Ticarət Evi açılıb.



# Avstraliya Azərbaycan iqtisadiyyatına böyük maraq göstərir

Bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov jurnalistlərə açıqlamasında deyib.

"Avstraliya şirkətləri Azərbaycanda, xüsusilə turizm, logistika, nəqliyyat, neft-qaz sənayesi, kənd təsərrüfatı, qida məhsullarının emalı, eyni zamanda, ölkəmizdə müxtəlif sektorlara investisiyaların yatırılması və ticarətin genişləndirilməsində maraqlıdırlar", - deyə AZPROMO rəhbəri qeyd edib.

Azərbaycan-Avstraliya biznes-forumunun iki ölkənin ticarət və iqtisadi əlaqələri çərçivəsində ilk biznes-forum olduğunu deyən R.Məmmədov diqqətə çatdırıb ki, bugünkü tədbirdə Avstraliyadan müxtəlif sektorları təmsil edən 20-yə yaxın iş adamı iştirak edib. Biznes-forumun əsas məqsədi ölkələrimiz arasında ticarət və investisiya əlaqələri çərçivəsində konkret layihələrin, perspektivlərin müəyyənləşdirilməsi və Azərbaycan ilə Avstraliyanın işgüzar dairələri arasında biznesin qurulmasıdır.




# Bakıda "Caspian Energy Tourism Forum" keçirilib

Oktyabrın 18-də Bakıda "Caspian European Club" və "Caspian American Club" tərəfindən turizm sektoruna həsr olunmuş "Caspian Energy Tourism Forum"u təşkil olunub.

Mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədovun iştirakı ilə keçirilən xüsusi sessiyada turizm sektoru ilə bağlı əsas məsələlər və problemlər müzakirə olunub.

Nazir müavini iştirakçılara turizm sektorunun gələcək inkişafı istiqamətində görülən tədbirlər, planlar və perspektivlər barədə məlumat verib. Foruma Xəzər-Qara dəniz regionu ölkələrinin iri avia və turizm şirkətlərinin rəhbərləri qatılıb.




Xatırladaq ki, dünyanın 50 ölkəsindən olan 5 mindən artıq şirkət və təşkilatı birləşdirən "Caspian European Club" 2002-ci ildə Xəzər-Qara dəniz regionunda fəaliyyət göstərən nəhəng neft-qaz şirkətlərinin dəstəyi ilə yaradılıb.

# Yanvar-sentyabr aylarında dövlət büdcəsinin gəlirləri 12045,1 milyon manat, xərcləri 12783,7 milyon manat olub

Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, bu ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin gəlirləri 12045,1 milyon manat, xərcləri 12783,7 milyon manat təşkil edib. Büdcənin icrasında 738,6 milyon manatlıq və ya ümumi daxili məhsulun 1,5 faizi qədər kəsir yaranıb.



Dövlət Statistika Komitəsindən bildiriblər ki, yanvar-avqust aylarında dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 30,3 faiz artaraq 10788,8 milyon manata, xərcləri isə 21,2 faiz artaraq 11327,5 milyon manata çatıb. Büdcənin icrasında yaranmış 538,7 milyon manatlıq kəsir ümumi daxili məhsulun 1,2 faizini təşkil edib.

Daxilolmaların 21,2 faizi əlavə dəyər vergisi, 15,1 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 6,7 faizi fiziki şəxslərin gəlir vergisi, 3,8 faizi aksizlər, 10,8 faizi digər vergilər, 42,4 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilib. Büdcə vəsaitlərinin 27,9 faizi iqtisadiyyatın inkişafı və tənzimlənməsinin, 15,2 faizi sosial müdafiə və sosial təminat, 14,1 faizi ümumi dövlət xidmətləri, 13,2 faizi təhsil və səhiyyə sahələrinin, 29,6 faizi isə digər sahələrin maliyyələşdirilməsinə xərclənib.

# Vüsal Qasımlı: İlin əvvəlindən Azərbaycanda pul bazası 18 faiz artıb




İlin əvvəlindən Azərbaycanda pul bazası 18 faiz artıb.

Bu barədə Bakıda keçirilən "Azərbaycan kapital bazarları: imkanlar və perspektivlər" adlı konfransda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib.

V.Qasımlı ölkədə kapital bazarlarının inkişafı istiqamətində görülən işlərdən danışıb, bu sahənin əhəmiyyətini qeyd edib. O, maliyyə savadlılığının artırılmasının zəruriliyini vurğulayıb.

# Azərbaycanda qızıl hasilatı kəskin artıb

2017-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda 4 min 434,6 kq qızıl hasil edilib ki, bu da ötən ilin müvafiq dövrünün göstəricisindən 3,1 dəfə çoxdur. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib. Sentyabr ayında isə 500,1 kq qızıl hasil edilib. Hasil edilən qızıl emala göndərilib. 2016-cı ildə Azərbaycanda 1 min 894,1 kq qızıl hasil olunub, hasilatın həcmi 15% azalıb.



# Aleksandr Lukaşenko: Belarus və Azərbaycan parlamentləri ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verə bilərlər

Belarus və Azərbaycan parlamentləri ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verə bilərlər.
Bu fikri oktyabrın 13-də Minskdə Milli Məclisin sədri Oqtay Əsədovla görüşündə Belarus Prezidenti Aleksandr Lukaşenko bildirib.
Parlamentin öz imkanlarının və üstünlüklərinin olduğunu qeyd edən A.Lukaşenko deyib: "Mən parlamentlərin imkanlarını yaxşı bilirəm. Düşünürəm ki, parlamentlər ölkələrimiz arasında münasibətlərin inkişafına təkan verə bilər. Prezident kimi şəxsən mən Belarus parlamenti sədrinin fikirlərinə çox diqqət yetirirəm. Bilirəm ki, Azərbaycan Prezidenti İlham Əliyev də çox demokratik, yüksək təhsilli və intellektual şəxsdir. Əgər ölkə parlamenti vacib məsələni irəli sürərsə, ona xüsusi diqqət yetirir".



Belarus dövlətinin başçısı qeyd edib ki, hər iki ölkənin müəyyən etdiyi öz yolu, öz siyasi xətti var. "Ölkələrimiz arasında çox səmimi və yaxşı münasibətlər var. Sözsüz ki, biz dost kimi bir-birimizə etibar edirik", - deyə Belarus Prezidenti vurğulayıb. Prezident A.Lukaşenko deyib ki, Belarus və Azərbaycan bir çox sahələrdə sıx əməkdaşlıq edirlər. Ölkələrimizin müştərək müəssisələrinin istehsal etdiyi məhsullar digər ölkələrin bazarlarına çıxarılır. "Belarus ilə Azərbaycan arasında hərbi-texniki sahədə əməkdaşlıq genişlənir. Azərbaycana bu sahədə dəstək verməkdə israrlıyıq. Belarus Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır və bununla bağlı qətiyyətli mövqeyini davam etdirəcək", - deyə A.Lukaşenko qeyd edib.
Soçidə MDB Dövlət Başçıları Şurasının iclasında Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdüyünü xatırladan A.Lukaşenko deyib ki, bu görüşdə ikitərəfli münasibətlərə dair geniş müzakirələr aparılıb.
Milli Məclisin sədri Oqtay Əsədov qeyd edib ki, Azərbaycan Belarus ilə bütün istiqamətlərdə əməkdaşlığı fəal davam etdirir. Bu gün ikitərəfli format, demək olar ki, bütün sahələri əhatə edir və genişlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Belarusun tutduğu mövqeyə görə təşəkkürünü bildirən Oqtay Əsədov xatırladıb ki, 2016-cı il aprel hadisələrində Belarus Prezidenti bəyanat verərək münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiyini açıqladı.

# Oqtay Əsədov: Özgə torpaqlarının qəsb edilməsinə göz yumulması bütün dünyada sülh və təhlükəsizliyə təhdiddir

"Təəssüf ki, ötən 25 il ərzində Ermənistan mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymur və beynəlxalq hüquq qaydalarını kobudcasına pozmaqda davam edir. Qəribədir ki, təcavüzkarı beynəlxalq təşkilatların qərarlarına əməl etməyə məcbur edən mexanizm mövcud deyil. Bu isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ikili standartlar əsasında yanaşılmasına gətirib çıxarır".
Bu fikirləri Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov Sankt-Peterburqda Parlamentlərarası İttifaqın 137-ci Assambleyasında çıxışı zamanı söyləyib.
Oqtay Əsədov deyib ki, bu qəsbkarlıq siyasətinin nəticəsi olaraq Azərbaycan ərazisinin 20 faizi işğal altındadır, 1 milyon azərbaycanlı qaçqın və köçkün vəziyyətində yaşayır. İşğalçılıq müharibəsinin gedişində 20 minə yaxın dinc azərbaycanlı qətlə yetirilib, 20 mindən çox dinc sakin yaralanıb, bir neçə yaşayış məntəqəsində, o cümlədən Xocalı şəhərində dəhşətli soyqırımı cinayətləri törədilib.
Azərbaycan parlamentinin sədri deyib: "Biz hesab edirik ki, etnik separatizmə və davakar millətçiliyə, özgə torpaqlarının qəsb edilməsinə



göz yumulmasının bütün dünyada sülh və təhlükəsizlik üçün nə dərəcədə qorxulu olduğu hamılıqla qəbul edilməlidir. Beynəlxalq birlik özündə güc tapıb qəti tədbirlər görməli və bütün münaqişələr, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamılıqla tanınmış beynəlxalq hüquq prinsipləri və normaları, xüsusən onların arasında başlıca prinsip olan dövlətlərin ərazi bütövlüyü əsasında həll edilməlidir. Azərbaycan bu gün dünya birliyinin üzləşdiyi ağır problemlərin həlli və sülhün, əmin-amanlığın təmin edilməsi məqsədilə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində səyləri birləşdirməyə və birgə fəaliyyət göstərməyə hazırdır". Azərbaycanın multikulturalizm və tolerantlıq modelindən söz açan Oqtay Əsədov qeyd edib: "Azərbaycanda dövlət siyasətinin mühüm bir istiqamətini mədəniyyətlərarası, dinlərarası dialoqun və multikulturalizmin dəstəklənməsi təşkil edir. Azərbaycan çoxmillətli ölkədir, cəmiyyətimizin mədəni, etnik və dini müxtəlifliyi bizim böyük sərvətimizdir. Tamamilə məntiqlidir ki, bizim ölkəmizdə 2016-cı il "Multikulturalizm ili", 2017-ci il isə "İslam həmrəyliyi ili" elan olunub", - deyə sədr diqqətə çatdırıb.
Milli Məclis sədrinin sözlərinə görə, bu gün müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələrini bir araya gətirən dünya və qitə miqyaslı tədbirlərin Azərbaycanda keçirilməsi ənənə halını alıb.
Azərbaycanda müxtəlif dinlərə etiqad edən insanlar üçün əmin-amanlıq və xeyirxahlıq mühiti yaradılıb və bu prinsiplər milli qanunvericilik vasitəsilə dini etiqad azadlığı və dini tolerantlıq çərçivəsində qorunub saxlanıb.

# Azərbaycan və Belarus parlamentləri arasında Bəyannamə imzalanıb

Oktyabrın 12-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov, Belarus Respublika Şurasının sədri Mixail Myasnikoviç və Belarus parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko Azərbaycan nümayəndə heyətinin Minskə rəsmi səfərinin yekununa dair Bəyannamə imzalayıblar.
Bəyannamədə Azərbaycan və Belarus parlamentlərinin iki ölkə arasında iqtisadi-ticari, mədəni, elmi, təhsil sahələrində əlaqələrin inkişafına töhfələri qeyd olunub.



# Baş nazir Andrey Kobyakov: Azərbaycan bölgədə Belarusun ən etibarlı dostu və strateji müttəfiqidir



Bu fikri Belarus Respublikasının Baş naziri Andrey Kobyakov Minsk şəhərində rəsmi səfərdə olan Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə deyib.
Azərbaycan ilə Belarus arasında iqtisadi, mədəni, elmi-texniki əlaqələrin inkişaf tempindən söz açan Baş nazir qeyd edib ki, son illər maşınqayırma, kənd təsərrüfatı texnikası və informasiya texnologiyaları istiqamətində əməkdaşlıq yüksələn xətlə inkişaf edir.
Milli Məclisin sədri Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal iqtisadi layihələrdən söz açıb. Spiker Azərbaycanla Belarus arasında mövcud olan iqtisadi, ticari, elmi, mədəni əlaqələrin daha da inkişaf etdirilməsi üçün birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb. Oqtay Əsədov deyib ki, Minsk traktor zavodunun Gəncə avtomobil zavodunda istehsal olunan traktor və avtomobilləri Azərbaycan vasitəsilə Türkiyə bazarına çıxarılacaq.

# Vladimir Andreyçenko: Azərbaycan və Belarusun bütün məsələlərdə mövqeləri üst-üstə düşür

Azərbaycan və Belarus parlamentariləri beynəlxalq təşkilatlarda, o cümlədən ATƏT Parlament Assambleyası çərçivəsində sıx əməkdaşlıq edirlər. Beynəlxalq təşkilatlarda müzakirə olunan bütün məsələlərdə ölkələrimizin mövqeləri üst-üstə düşür. Azərbaycan Belarus üçün etibarlı dost və tərəfdaşdır.
Bu fikirləri Belarus Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Vladimir Andreyçenko Milli Məclisin sədri Oqtay Əsədovla görüşü zamanı deyib.
O bildirib ki, Belarus ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupu ilə fəal əməkdaşlıq etmək niyyətindədir. Yayda ATƏT PA-nın Minskdə keçirilən 26-cı sessiyası zamanı Azərbaycan nümayəndə heyəti tərəfindən yaradılan bu qrup iqtisadi və siyasi cəhətdən vacib layihədir. Belarus nümayəndə heyəti ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun Bakıda keçiriləcək konfransında iştirak etmək niyyətindədir.
Ölkələrimiz arasında bütün sahələrdə səmərəli əməkdaşlığın mövcud olduğunu vurğulayan Vladimir Andreyçenko bildirib ki, ticari-iqtisadi və investisiya sahələrində



əlaqələr daha da inkişaf etdirilməlidir. Hər iki ölkənin parlamentariləri bu sahədə fəallıq göstərməlidirlər.
Milli Məclisin sədri Oqtay Əsədov bildirib ki, dövlətlərimiz arasında imzalanmış sənədlər münasibətlərimizin hüquqi bazasını təşkil edir. Hər iki ölkənin qanunverici orqanlarındakı dostluq qrupları arasında əlaqələr genişləndirilməlidir.
Spiker vurğulayıb ki, Azərbaycan və Belarus arasında siyasi münasibətlər ən yüksək səviyyədədir, iqtisadi-ticarət əlaqələri günbəgün inkişaf edir. İqtisadiyyatın digər sahələrində əməkdaşlığın daha da dərinləşdirilməsi üçün geniş imkanlar var.
Sədr ölkələrimiz arasında münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin mühüm rol oynadığını bildirib. Oqtay Əsədov hər iki ölkənin parlamentlərinin tərkibində elm fondunun yaradılmasının vacibliyini də qeyd edib.
Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, maşınqayırma, kənd təsərrüfatı, elm, təhsil, mədəniyyət sahələrində əlaqələrin dərinləşməsi barədə fikir mübadiləsi aparılıb.

# Milli Məclisin nümayəndə heyəti Minsk traktor zavodunun fəaliyyəti ilə tanış olub



Belarusda səfərdə olan Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovun başçılıq etdiyi parlament nümayəndə heyəti oktyabrın 11-də Minsk traktor zavodunun fəaliyyəti ilə tanış olub.
Zavodla tanışlıqdan sonra Azərbaycan nümayəndə heyəti müəssisənin rəhbərliyi ilə görüşüb.
Görüşdə qeyd olunub ki, Minsk traktor zavodu bu il ərzində Azərbaycana əlavə olaraq 460 texnika göndərmək niyyətindədir. Diqqətə çatdırılıb ki, müəssisə Gəncə avtomobil zavodu ilə birgə yığdığı traktorların Türkiyə bazarına çıxarılmasını planlaşdırır.

# Milli Məclisin nümayəndə heyəti Minskdə Böyük Vətən Müharibəsi Muzeyi ilə tanış olub

Minskdə səfərdə olan Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti Böyük Vətən Müharibəsi Muzeyində olub. Nümayəndə heyəti muzeyin eksponatları ilə tanış olub, İkinci Dünya müharibəsində qəhrəmancasına həlak olmuş həmyerlilərimizin döyüş tarixi ilə maraqlanıb. Milli Məclisin sədri Oqtay Əsədov muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

*Görüşlərdə Azərbaycan Respublikası Milli Məclisinin komitə sədrləri - Ziyad Səmədzadə, Fuad Muradov, deputatlardan Xanlar Fətiyev, Ülviyyə Ağayeva, Azərbaycanın Belarusdakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov və digərləri iştirak ediblər.*

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.

# ŞAMAXI KEYFİYYƏTCƏ YENİ İNKİŞAF MƏRHƏLƏSİNƏ QƏDƏM QOYUB

Bu ilin oktyabr ayının 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şamaxı və Qobustan rayonlarına səfəri, bir sıra sosial infrastruktur obyektlərinin, avtomobil yollarının açılışında iştirak etməsi, ictimaiyyətin nümayəndələri ilə görüşməsi və fikir mübadiləsi aparması yerli əhali tərəfindən böyük razılıqla qarşılanmışdır. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində Şamaxı rayonunda nəzərəçarpacaq yüksəliş və inkişaf baş vermişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev «Şamaxı su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» çərçivəsində görülən işlərlə tanış olub. Bu layihə Şamaxı şəhərində 41 min nəfərin içməli su və kanalizasiya sistemindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihənin icrasına 2010-cu ildən başlanılıb. Birinci mərhələdə Şamaxı şəhərini keyfiyyətli və dayanıqlı su ilə təmin etmək üçün Pirsaatçayın məcrasında məhsuldarlığı saatda 120 litr olan drenaj tipli suqəbuledici qurğu, həcmi 1000 kubmetr olan iki anbar, bir su nasos stansiyası tikilib, su mənbəyindən anbara qədər 3,4 km kəmər çəkilib.

Layihənin 2012-ci ildə başlanan ikinci mərhələsində ümumi tutumu 7000 kubmetr olan 4 anbar inşa edilib, şəhərə 8,8 km uzunluğunda su kəməri çəkilib, 134 km-lik içməli su şəbəkəsi yaradılıb, 8300 ünvana birləşmə verilib və sayğaclar quraşdırılıb. Layihənin sonuncu mərhələsində isə məhsuldarlığı sutkada 10 min kub metr olan bioloji tipli tullantı sutəmizləyici qurğu inşa edilərək istifadəyə verilib. Alternativ su mənbəyinin yaradılması da nəzərdə tutulub. Bu məqsədlə artıq Ağsuçayın məcrasında subartezian quyusunun, nasos stansiyasının və Şamaxı şəhərinə 22 km-lik magistral kəmərinin inşasına başlanılıb.

Ölkə üzrə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq 45 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur ki, indiyədək 21 rayonda su, 8 rayonda isə kanalizasiya sistemlərinin yenidən qurulması yekunlaşdırılıb.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun olaraq, respublikamızın nəqliyyat-yol infrastrukturu yenidən qurulur. Oktyabr ayının 2-də cənab Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə uzunluğu 8 kilometr olan Pirqulu-Dəmirçi avtomobil yolunun əsaslı təmirdən sonra açılışı həyata keçirilib. Şamaxı rayonunun dağlıq ərazisində yerləşən bu avtomobil yolunun tikintisi 1,6 min nəfər əhalinin yaşadığı 5 kəndi birləşdirəcək, yük və sərnişin daşınmasını xeyli yaxşılaşdıracaq. Həmçinin, cənab prezident Şamaxı-Pirqulu yolunun açılışını edib. Bu, çox böyük layihədir, böyük həcmdə investisiya qoyulub, 53 km uzunluğunda 16 kəndi birləşdirir. Hazırda Bakı-Şamaxı magistral yolu 4 zolağa genişləndirilir və çox rahat bir yol olacaqdır. Cənab prezident yeni avtomobil yollarının açılışını edərkən həmin yolların üstündə bir çox istehsal və emal infrastrukturunun yaradıldığını dilə gətirərək demişdir: «Şamaxıda çəkilən yeni yolların üzərində yeni aqroparklar salınır. İndi mənə verilən məlumata görə, Şamaxı rayonunda üç aqropark fəaliyyətə başlayıb. Aqroparklarla bağlı bizim siyasətimiz artıq bəyan edilib, ölkəmizdə 37 aqropark yaradılır».

O, qeyd etmişdir ki, özəl sektora kreditlər, texnika verilir. Şamaxıda yaradılan aqroparkların ərazisi 20 min hektara yaxındır. Burada kənd təsərrüfatı məhsulları istehsal ediləcək, həm bolluq yaranacaq, yeni iş yerləri açılacaq, həm də ixrac imkanları genişlənəcəkdir.

Ölkəmizdə işgüzar fəallığın yüksəldilməsi, qeyri-neft sektorunun inkişafı, azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişaf etdirilməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və məşğulluğun təmin edilməsinə etibarlı təminat yaradılıb. Cənab Prezident İlham Əliyevin aqrar bölmənin müasir texnologiyalar müstəvisində inkişaf yoluna çıxarılmasına yönəlik siyasəti öz bəhrəsini verməkdədir. Bu siyasət həm də kənd təsərrüfatı məhsullarının istehsalını və ixracını artırmaq hədəfini özündə ehtiva edir. Şamaxı rayonunda əhalinin əksər hissəsi heyvandarlıq və bitkiçiliklə məşğul olur. Bitkiçilikdə taxıl, kartof, tərəvəz, bostan, üzüm, meyvə istehsalı üstünlük təşkil edir.

Ötən əsrin 70-80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından biri sayılırdı. Sovet İttifaqı çökdükdən sonra, 90-cı illərdə başqa sahələr kimi, üzüm bağları da sıradan çıxdı. Hazırda bu gəlirli sahənin yenidən dirçəldilməsi dövlətin diqqət mərkəzindədir. Cənab Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan və qəbul edilən «2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı» bu sahənin inkişafında müstəsna rol oynadı, üzümçülüklə məşğul olan sahibkarlıq subyektlərinə güclü stimul vermiş oldu. Bu gün rayonda üzüm bağlarının sahəsi 1650 hektara çatdırılıb ki, bunun da 1550 hektarı məhsul verir. Bağlardan cari mövsümdə 14 min ton üzüm yığılması gözlənilir. «Az.Qranta» MMC Şamaxıda üzümçülüyün inkişafı sahəsində xeyli iş görüb, 2016-cı ildə «Az. Qranta»nın bağlarından 3 min ton üzüm yığılıb.

Ərazilərin dəniz səviyyəsindən yüksəklikdə yerləşməsi, illik yağıntının miqdarı, temperatur göstəriciləri və torpaq xüsusiyyətləri Şamaxıda yüksək keyfiyyətli nadir üzüm növlərinin yetişdirilməsini şərtləndirən amillərdir. Seçilən növlər üzrə ölkəmizə yüksək keyfiyyətli tinglər gətirilib və zəruri texnikalar alınıb.




Üzüm tingləri, əsasən Fransa, Türkiyə və Gürcüstandan gətirilən ən yaxşı növlərdən ibarətdir. Texniki növlərdən «Şardane», «Cabame», «Cabame-Frans», süfrə üzümlərindən «Prima», «Cardinal», «Sultaniye», «Alfonz Lavalle», «Danuta» və s. kimi növləri misal çəkmək olar. 2015-2017-ci illərdə «Superrioz seedeless», «Qrimson Seedeles», «Red Qlobe» kimi yeni növlər gətirilərək bağlar salınmışdır. Kişmiş və əla şərab növü olan «Mədrəsə» kimi yerli növlər üzrə də məhsul istehsalı ilbəil genişləndirilir. Cari ildə texniki üzüm sortu üzrə məhsuldarlıq 7-8 ton, süfrə üzümünün hər hektara məhsuldarlığı isə 15 ton olub. Növbəti ildə hədəf texniki sort üzrə hər hektara 10-12 ton, süfrə üzümü üzrə isə 17-18 ton məhsul əldə etməkdir.

2015-ci ildə süfrə üzümü yetişən bağlarda ən müasir sistemlər qurulub. Hazırda «Az.Qranata»nın üzüm bağlarında 254 nəfər işlə təmin olunub ki, bunun da 200-ü qadındır.

Süfrə üzümləri Bakı şəhərinin «Meyvəli» və «8-ci kilometr» topdansatış bazarlarına göndərilir, texniki sortlar isə emal üçün «Az. Qranata» MMC-yə təhvil verilir.

Son illər ölkəmizdə turizm ehtiyatlarının öyrənilməsi, turistlərin tələbatının dolğun şəkildə ödənilməsi, otellərin və digər turist obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması istiqamətində aparılan ardıcıl və davamlı tədbirlər real nəticələrini verməkdədir. Əsas məqsəd turizmi ölkə iqtisadiyyatının dayanıqlı və effektiv, həmçinin rəqabətə davamlı sahəsinə çevirməkdən ibarətdir. Şamaxı rayonunda da turizmin inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirilir. Şamaxıya səfəri zamanı Prezident İlham Əliyev demişdir: Şamaxı turizm imkanları böyük olan bir rayondur. Həm tarixi, dini abidələr var, yeni gözəl, ən yüksək səviyyəyə cavab verən otellər var. Bu gün Şamaxıda ölkəmizdə ilk dəfə olaraq Safari Parkı açılır. Bu da çox əhəmiyyətli hadisədir. Çünki inkişaf etmiş ölkələrdə belə parklar var. Dəmirçi kəndinin, – o da tarixi bir yerdir, bərpası da artıq öz həllini tapıb. Ona görə də Şamaxıda turizmin inkişafı sürətlə getməlidir. Şamaxının həm gözəl şəraiti, iqlimi, gözəlliyi, Bakıya yaxınlığı, həm də infrastrukturu, otellərin mövcudluğu bunu şərtləndirir».

Şamaxı rayonunun Dəmirçi kəndində turizm infrastrukturunun yenilənməsi, tarixi abidələrin bərpası və abadlıq-quruculuq işlərinin aparılması onun cəlbediciliyini və ecazkarlığını daha da artırır. Dəmirçi Şamaxı rayonunun ən qədim kəndlərindən biridir və onun tarixi XV əsrə gedib çıxır. Qədimdə adı Süneyçay olan kənddə dəmirçilik sənəti geniş yayılmışdır. Ona görə də kəndə Dəmirçi adı verilib. Bir vaxtlar qədim İpək Yolunun kənarında yerləşən kənddə bir neçə karvansara olub. Sovet hakimiyyəti illərində bir çox abidələr dağıdılıb. Maraqlı adət-ənənələri, özünəməxsus mədəniyyəti olan yerli əhali elmə, təhsilə böyük maraq göstərir. Odur ki, kəndin bərpası və tarixi simasını qoruması ilə bağlı son illərdə həyata keçirilən işlər ölkəmizin bu nadir abidəsini qoruyub saxlamaq və onu gələcək nəsillərə çatdırmaq istiqamətində mühüm vəzifələrdən biridir.

Dəmirçi kəndində görülən işlər bir neçə istiqamətdə həyata keçirilir və kompleks xarakter daşıyır. Qədim dini ocaqlardan biri olan Dəmirçi məscidi 755-ci ildə tikilib və Prezident İlham Əliyevin tapşırığı ilə bərpa edilib. Bir neçə il öncə Yaxın Şərqin ən qədim məscidlərindən olan Şamaxı cümə məscidində bərpa və yenidənqurma işlərinin aparılması qədim Şamaxının simasına xüsusi bir çalar və rəng qatıb.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri, Şamaxı rayonu**

## 2017-ci ilin sentyabr ayında vergi ödəyicilərinə göstərilmiş xidmətlər haqqında



2017-ci ilin sentyabr ayı ərzində Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 15237 zəng cavablandırılıb. Vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə onlara 46 824 SMS göndərilib.

Sentyabr ayı ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 388436 daxilolma qeydə alınıb.

Vergi ödəyicilərinə xidmət strukturlarında 24748 vətəndaş qəbul edilərək, onlara 37032 sayda xidmət göstərilib. 2017-ci ilin 1 oktyabr tarixinə vergi ödəyicilərinə ümumilikdə 366187 sayda ASAN İmza sertifikatı verilib.

2017-ci ilin sentyabr ayı ərzində 7039 vergi ödəyicisi (955 hüquqi şəxs, 6084 fiziki şəxs) qeydiyyatdan keçib.

## Şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinin siyahısı açıqlanıb

Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) "Yaşıl dəhliz" bölməsində şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinin siyahısı yerləşdirilib.

Cari ilin əvvəlindən etibarən vergi orqanlarına partnyor ödəyici statusunun alınması üçün müraciət edən və ya təsdiq edilmiş qaydalarda göstərilən meyarlara uyğun olduğu müəyyən edilən 454 (o cümlədən, Bakı şəhəri üzrə 200) vergi ödəyicisinə "Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə" bildirişlər təqdim olunub.

Partnyor vergi ödəyicilərinin növbədənkənar qəbulu üçün respublika üzrə 52 xidmət mərkəzinin növbə terminalının proqram təminatında sürətli keçid üçün "Yaşıl dəhliz" adında seçim imkanı yaradılıb və bu sahədə işlər davam etdirilir. Xatırladırıq ki, vergi ödəyicisi "Partnyor vergi ödəyicisi statusu"na malik olmaq üçün bir sıra meyarlara cavab verməlidir. Belə ödəyicilər vergi hesabatlarını vaxtlı-vaxtında təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onlara verilən əməkhaqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalıdırlar. Partnyor ödəyicilərə ərazi məhdudiyyəti nəzərə alınmadan, "Yaşıl dəhliz prinsipi" əsasında xidmət göstərilir. Burada bir sıra ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlər də təqdim edilir. Belə xidmətlərə videobağlantılar, Çağrı və xidmət mərkəzlərində partnyor ödəyicilərə növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün dəyirmi masa, seminar və konfransların təşkili və s. aiddir.

## Hər kəs öz məsuliyyətini bilməlidir!

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin hazırladığı «Vergi hüquqpozmalarına qarşı tətbiq edilən məsuliyyət tədbirləri haqqında Yaddaş» nazirliyin rəsmi internet səhifəsində yerləşdirilib. «Yaddaş» vergi ödəyicilərinin hüquqları barədə maarifləndirici səciyyə daşıyır.

Vergi qanunvericiliyi ilə müəyyən olunmuş vəzifələrə əməl etmək hər bir vergi ödəyicisinin borcu olsa da, müşahidələr göstərir ki, vergi ödəyiciləri heç də bütün hallarda Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinə məsuliyyətlə yanaşmır və vergi qanunvericiliyinin tələblərinə tam əməl etmirlər. Bu isə sonda vergi ödəyicilərinə qarşı inzibati cərimə və maliyyə sanksiyaları tətbiq edilməsi ilə nəticələnir. «Yaddaş»ın hazırlanmasında və vergi ödəyiciləri arasında yayılmasında məqsəd bu cür halların qarşısını almaqdır.

Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən şəxs vergi ödəyicisi sayılır və vergi ödəyiciləri vergilərlə bağlı vergi qanunvericiliyində nəzərdə tutulmuş vəzifələrini tam və vaxtında icra etməyə borcludurlar. «Yaddaş»da vergi qanunvericiliyinin pozulması hallarına görə Vergi Məcəlləsi ilə müəyyənləşdirilmiş maliyyə sanksiyaları və faizlər, vergi hüquq pozuntularına görə inzibati xətaların törədilməsi hallarına görə İnzibati Xətalar Məcəlləsi ilə müəyyənləşdirilmiş cərimələr, eləcə də vergi hüquq pozuntularına görə cinayət əməllərinin törədilməsi hallarına görə Cinayət Məcəlləsi ilə müəyyənləşdirilmiş cəzalar barədə ətraflı məlumat verilib. «Yaddaş» vergi sahəsində qanun pozuntularına görə həm ölkə vətəndaşlarının, həm də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması hallarını və müddətini də vergi ödəyicilərinin nəzərinə çatdırır. «Yaddaş»dan istifadə etməklə vergi ödəyiciləri öz üzərlərinə hansı vəzifələrin düşdüyü və həmin vəzifələri vaxtında yerinə yetirmədikdə tətbiq olunan cərimə və maliyyə sanksiyaları ilə üzləşə biləcəkləri barədə məlumatlandırılırlar.

Bir daha xatırladırıq ki, vergi ödəyiciləri mövcud qanunvericiliyin tələblərinə tam və vaxtında əməl etməklə öz vəzifələrini yerinə yetirmiş olur, hər hansı maliyyə sanksiyalarına, inzibati cəzalara məruz qalmırlar.

## Yanvar-sentyabr aylarında vergi daxilolmaları üzrə büdcə tapşırıqları tam həcmdə icra olunub

2017-ci ilin yanvar-sentyabr ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 5 milyard 224 milyon 482,9 min manat məbləğində vəsait ödənilərək, Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırığına 100,1 faiz əməl olunub.



## Vergi hüquqpozmalarına qarşı ciddi tədbirlər görülür

2017-ci ilin 9 ayında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 405 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 13 milyon 433,2 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib. 64 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilib.




Departamentin İstintaq idarəsində 334 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 11 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 80 iş üzrə 90 nəfər barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 14 nəfər saxlanılaraq departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 232 şəxsin məcburi qaydada gətirilməsi, 396 şəxsin tapılaraq istintaqa gəlmələri, 449 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib.

# UNEC biliklər iqtisadiyyatının inkişafına töhfələr verməyi hədəfləyir



*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi Şurasının qərarı ilə təsdiq olunan “Azərbaycan Dövlət İqtisad Universitetində professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan diferensial əməkhaqqı sisteminin tətbiqi haqqında Qaydalar”ın əsas məqsədi professor-müəllim heyətinin xidməti fəaliyyətini obyektiv kriteriyalar əsasında qiymətləndirərək, əməkhaqlarını diferensiallaşdırmaqla onların elmi-pedaqoji fəaliyyətlərinin ADİU-nun inkişaf hədəfləri istiqamətində stimullaşdırılmasını gücləndirməkdir.* **Bu günlərdə isə diferensial əməkhaqqı sistemi üzrə reytinq sıralamasında ilk yerdə Azərbaycan Dövlət İqtisad Universitetinin “Elm” şöbəsinin müdiri, “Maliyyə və maliyyə insitutları işi” kafedrasının professoru, i.e.d. Zahid Fərrux Məmmədov qərarlaşdı. Biz də “İqtisadiyyat” qəzeti olaraq Zahid müəllimlə görüşdük, diferensial əməkhaqqı sistemi, onun üstünlükləri və digər xüsusiyyətləri haqqında məlumat aldıq. Mövzu ilə bağlı müsahibəni oxucuların diqqətinə çatdırırıq.**

**- Zahid müəllim, ilk olaraq sizi diferensial əməkhaqqı sistemi üzrə reytinqdə birinci olmağınız münasibətilə təbrik edirəm. İstərdim bu sistem haqqında bir qədər məlumat verəsiniz.**

Diferensial əməkhaqqı sistemində 40% elmi nailiyyətlər, 40% tədris fəaliyyəti, 20% isə özünüinkişaf göstəricisi nəzərə alınır. Təbii ki, bu prioritetlər içərisində elmi fəaliyyət daha çox üstünlüyə malikdir və bütünlükdə həm elmi tədbirləri, həm elmi nəşrləri, həm də xarici elmi tədbirlərdə məruzəçi və moderator olaraq çıxışları əsas götürür. Xüsusilə, burada UNEC-in statusunu nəzərə almaq lazımdır, çünki son dönəmdə UNEC bu sahədə böyük uğurlar qazanmışdır.

**- Bəs, UNEC-də diferensial əməkhaqqı sisteminin tətbiqi məsələsi nə ilə əlaqədar olaraq meydana çıxdı?**

Qeyd edim ki, UNEC dünya təhsil xidmətləri bazarında rəqabətqabiliyyətli brend universitet yaratmaqla yüksəkixtisaslı iqtisadçı və menecerlərin hazırlanması, fundamental və tətbiqi elmi tədqiqatların aparılması, “biliklər iqtisadiyyatı”nın inkişafına və ölkəmizin sosial-iqtisadi tərəqqisinə töhfələr verməyi hədəfləmişdir. 2016-cı ildə UNEC, həmçinin “Thomson Reuters”in ali təhsil müəssisələrinin qlobal elmi bazası olan “Web of Science” platformasına abunə yazılıb. Dünyanın aparıcı informasiya agentliyi olan “Thomson Reuters” şirkətinin təlimləri Azərbaycan ali təhsil müəssisələri arasında ilk dəfə UNEC-də təşkil olunub. Diferensial əməkhaqqı sisteminin tətbiqi təcrübəsi isə artıq xarici ölkələrdə çoxdan mövcuddur və biz düşündük ki, niyə də UNEC-də olmasın?! Beləliklə, Azərbaycanda belə bir sistemi ilk dəfə UNEC olaraq biz tətbiq etdik. Təbii ki, bu, cəsarətli bir addım idi. Heç bir təcrübəyə malik olmadan yalnızca dünya praktikasına əsaslanaraq biz onun Azərbaycan modelini yaratdıq.

**- Bu sistemin əsas üstünlükləri nədən ibarətdir?**

Diferensial əməkhaqqı sisteminin tətbiqinin, təbii ki, özünəməxsus üstünlükləri vardır. Bu üstünlük əsas olaraq onun müəllimlərin reytinqində informasiya bazası rolunu oynaması və stimullaşdırıcı xarakteri ilə bağlıdır. İnformasiya bazası xaricdə təşkil olunan beynəlxalq tədbirlərdə iştirakla əlaqədar gələn dəvətlərə cavab olaraq ora göndəriləcək nümayəndələrin seçilməsində mühüm rol oynayır. Nəzərə alın ki, əvvəllər ora göndəriləcək nümayəndəni seçmək üçün müxtəlif fikirlər səslənirdisə, artıq burada reytinq sistemi öz sözünü deməyə başlayır. Biz burada insanların iradəsinə görə deyil, alınan nəticəyə baxaraq, əsaslanaraq konfransa, hansısa tədbirə yollanacaq nümayəndəni rahatlıqla seçmiş oluruq.

Hətta UNEC-də illərdir fəaliyyət göstərən professor-müəllim heyəti var ki, xarici ölkələrin heç birində konfranslarda iştirak etməyiblər. Bu gün isə reytinqin nəticələrinə əsasən onlar konfranslara göndərilir və özləri də bundan məmnunluq duyduqlarını dilə gətirirlər. Burada da artıq müəllimlərin sırf fəaliyyətilə bağlı qiymətləndirmə aparılır. Həmçinin, artıq bu reytinq sistemi ilə hamı bir-birini tanıyır, universitetdə bütün kafedraların bir-birinin fəaliyyətindən məlumatı var. Hansısa vəzifəyə təyin olunduqda da və ya mükafatların verilməsində də bu sistem mühüm rol oynamaqdadır.

Diferensial əməkhaqqı sisteminin əsas üstünlüklərindən biri də araşdırma yolu ilə bilik istehsal etmək və tədris yolu ilə savadlı kadrlar yetişdirməkdir.

**- Zahid müəllim, bəs, bu reytinqin ilk sırada qərarlaşan müəllim üçün başqa stimullaşdırıcı cəhətləri də varmı?**

Reytinqdə üstünlük qazanan müəllim pul mükafatı də əldə edir ki, bu da əlavə stimuldur. Həmçinin, burada maaşa əlavələr də nəzərdə tutulur. Hər il bu reytinqdə fərqli müəllim yer tuta bilər. Bu da rəqabət mühiti formalaşdırmaqla bu reytinq uğrunda mübarizəni artırır və fəaliyyət prosesini daha yaxşı qurmağa kömək edir. Bəzən alim və ya professorlarımız düşünür ki, bu reytinqdə ən üst sırada qərarlaşan müəllim artıq elmdə söz sahibidir. Təbii ki, bu, belə deyil. Hətta futbolda da bir il birincilik qazanan komanda sonrakı illərdə uğur qazanmaya bilər. Məsələn, Qalatasaray, Spartak və s. Amma, təbii ki, onlar da illər keçsə də, marka olaraq qalmaqda davam edir. Belə müəllimlərimizi də biz UNEC-də hörmətlə sayıb-seçirik.

**- Bu sistemlə əlaqədar gələcəkdə hansı işlərin görülməsi nəzərdə tutulur?**

Hazırda bu sistem üzrə reytinq sıralaması əsasən bir illik fəaliyyət mexanizmini əhatə edir, lakin biz gələcəkdə professor-müəllim heyətinin bütün fəaliyyətini əhatə edəcək bir mexanizm hazırlamağı da düşünürük.

Bilirsiniz ki, “Azərbaycan Respublikasının milli iqtisadiyyatın perspektivləri üzrə Strateji Yol Xəritəsi” ilə Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması prosesinə start verildi. Strateji Yol Xəritəsində də elm, təhsil, innovasiya formatına keçid haqqında xüsusi bölmə var. Artıq universitetlərin də bu formatda işləməsinə ehtiyac var. Əvvəllər universitetləri bir tədris müəssisələri olaraq dəyərləndirirdiksə, onlar köhnə kitablara əsaslanıb, özləri deyib, özləri dinləyir, heç bir müzakirə aparmırdılarsa, artıq anlayırlar ki, onların elmi tədqiqi olmalıdır, nəhəng problemlərin həllinə yönəlmiş tədqiqat işləri aparılmalıdır. Beləliklə, universitetlərdə tədqiqatlar aparılır. Dərsliklərin hazırlanması elmi tədqiqat yolunu keçmədən mümkün deyildir. Sonra diqqət etdilər ki, elm elm üçün olmamalıdır, bunun ictimaiyyətə çatdırılması, kommersiyalaşdırılması lazımdır. Çünki intellektual mülkiyyətin kommersiyalaşdırılması prosesi olmalıdır. Beləliklə də, innovativ məhsul formatına keçid baş tutdu.

**- UNEC olaraq perspektiv planlarınız nədən ibarətdir?**

Hal-hazırda qarşıda duran ən önəmli məsələlərdən biri UNEC-də tədqiqat universiteti qurmaqdır. Artıq qısa müddətdə tədqiqat universitetinə keçidlə əlaqədar çox böyük uğurlar əldə edilib. Hətta elm haqqında qanunda bu məsələ öz əksini tapmışdır.

Həmçinin, yaxın zamanlarda UNEC-də məqalələrin beynəlxalq elmi jurnallarda nəşrinə başlamağı da düşünürük. Burada isə xüsusilə məqalələrin jurnalın istiqamətinə uyğun olması məsələsinə diqqət yetiriləcəkdir. Çünki bəzən kənd təsərrüfatı haqqında olan jurnalda sosial-mədəni, yaxud ədəbi jurnalda fizikaya dair məqalələrə rast gəlirsən. Bu, həm jurnal, həm də müəllif baxımından düzgün deyil. Çünki həmin məqalə o jurnalın profilinə uyğun deyil, eyni zamanda, öz oxucusunu da tapmayacaqdır.

**- Zahid müəllim, sizi bir daha qəzetimiz adından təbrik edirik və işlərinizdə nailiyyətlər diləyirik.**

Mən də “İqtisadiyyat” qəzetinə öz təşəkkürümü bildirirəm. Qeyd etmək istərdim ki, bu gün “İqtisadiyyat” qəzeti”nin Azərbaycan cəmiyyətində xüsusi xidmətləri, eyni zamanda, diferensial əməkhaqqı və elmi innovasiya formatına keçiddə böyük rolu var. Çünki “İqtisadiyyat” qəzetində bu haqda çoxsaylı məqalələr yer alır. Düşünürəm ki, “İqtisadiyyat” qəzetinin elmi jurnal təsis etməsi ictimai müzakirə üçün də gözəl imkanlar yaradardı.

**Müsahibəni apardı:**
**Mətanət Hüseynova**

# UNEC-də ictimai mühazirə: “Məqsədimiz iqtisadi artıma xidmət edəcək tədqiqatların genişləndirilməsidir”



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) ölkənin aparıcı universitetlərində aparılan uğurlu iqtisadi islahatlara həsr olunan ictimai mühazirələrə start verib. İlk ictimai mühazirə UNEC-də keçirilib.

UNEC rektoru, professor Ədalət Muradov bildirib ki, 2004-2014-cü illərdə uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində Azərbaycan dünyada iqtisadi artım sürətinə görə ön sıralarda qərarlaşıb. “Neftdən əldə olunan gəlirlər hesabına infrastruktur modernləşdirilib, qeyri-neft iqtisadiyyatı inkişaf etdirilib, əhalinin sosial rifahı yaxşılaşdırılıb, ölkədə ÜDM-dən çox həcmdə strateji valyuta ehtiyatları yaradılıb. Lakin 2014-cü ildən başlayaraq neft qiymətlərinin kəskin azalması və ticarət tərəfdaşı ölkələrində iqtisadi böhran nəticəsində ölkədə iqtisadi artım sürətinin səngiməsi, institusional və struktur çağırışlar, maliyyə-bank sektorunda baş verən proseslər Azərbaycanda yeni iqtisadi inkişaf yanaşmasına keçid zərurəti yaradıb”, - deyə bildirən Ə.Muradov buna görə də milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 Strateji Yol Xəritəsi hazırlandığını vurğulayıb. Strateji Yol Xəritələrində nəzərdə tutulan layihələrin həyata keçirilməsi istiqamətində görülən işlərdən bəhs edən rektor, “UNEC olaraq məqsədimiz ölkədə həyata keçirilən iqtisadi islahatların əsaslandırılması, iqtisadi artıma töhfə verəcək tədqiqatların genişləndirilməsidir”, - deyə, bildirib. O, UNEC-də mövcud potensialın reallaşdırılması üçün maksimal dərəcədə əlverişli şəraitin yaradıldığını diqqətə çatdırıb.

İİTKM-nin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan kompleks iqtisadi islahatlar nəticəsində xarici şokların təsiri altında yaranmış çətinliklər geridə qalıb. O, ölkədə qeyri-neft sektorunun dünya üzrə orta iqtisadi artım tempindən daha üstün yüksəlişinin gözlənildiyini diqqətə çatdırıb: “Aparılan iqtisadi islahatlar, yaradılan sənaye, aqrar və texnoparklar 2018-ci ildə qeyri-neft sektorunda bum yaşanacağını göstərir. Artıq kommersiya bankları da real sektorun maliyyələşməsində iştirakı gücləndirməyə başlayıblar”. V.Qasımlı bildirib ki, dövlət investisiya proqramı iqtisadi inkişafı dəstəkləyəcək və 2018-ci il qeyri-neft sektorunda sürətli inkişafı təmin edəcək”.

Tədbirdə ictimai mühazirələrin təhsil-elm-islahat sintezinin yaradılması baxımından əhəmiyyəti vurğulanıb. UNEC-in professor-müəllim heyəti və tələbələrinin sualları cavablandırılıb.

# Azərbaycan-Belarus biznes forumu keçirilib

Oktyabrın 17-də Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Belarus biznes forumu keçirilib.




Tədbirdə Azərbaycan və Belarusdan rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı, sənaye, tikinti, əczaçılıq, İKT, turizm, konsaltinq, maliyyə və digər sahələrdə fəaliyyət göstərən 100-ə yaxın iş adamı iştirak edib.

AZPROMO-nun vitse-prezidenti Yusif Abdullayev Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər, özəl sektorun gücləndirilməsi, ixracın genişləndirilməsi, "Made in Azerbaijan" brendinin və xarici investisiyaların təşviqi, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər, eləcə də Azərbaycan-Belarus iqtisadi əlaqələri və əməkdaşlıq imkanları barədə məlumat verib.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev Azərbaycanla Belarus arasında illik ticarət dövriyyəsinin artaraq 100 milyon dollara çatdığını qeyd edib, iki ölkənin iş adamları arasında əlaqələrin genişləndiyini vurğulayıb, iqtisadi-ticarət əməkdaşlığının inkişafında Belarusda yaradılan Azərbaycanın ilk Ticarət Evinin əhəmiyyətini diqqətə çatdırıb.

Belarusun Ticarət Sənaye Palatasının rəhbəri Vladimir Ulaxoviç Azərbaycan iqtisadiyyatına ölkəsində marağın böyük olduğunu, iki ölkə arasında iqtisadiyyatın müxtəlif sahələrində geniş əməkdaşlıq imkanlarını vurğulayıb. Vladimir Ulaxoviç yeni biznes əlaqələrinin qurulması baxımından işgüzar görüşlərin və biznes forumların əhəmiyyətini diqqətə çatdırıb, hər iki ölkənin iş adamlarını fəal əməkdaşlığa dəvət edib.

Biznes forum çərçivəsində Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Belarusun Ticarət Sənaye Palatası arasında əməkdaşlığa dair Memorandum imzalanıb.

Tədbir iş adamları arasında ikitərəfli görüşlərlə davam edib.

# "Azərbaycan Beynəlxalq Bankı"ndan zaminsiz, komissiyasız, endirimli nağd pul krediti kampaniyası

Müasir dövlət bankı olan "Azərbaycan Beynəlxalq Bankı" (ABB) 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə yeni kredit kampaniyasına start verib. Bankın mətbuat xidmətindən bildiriblər ki, ABB-nin bütün əməkhaqqı və pensiya kart sahibləri bu kampaniya çərçivəsində nağd pul kreditini bankdan güzəştli şərtlərlə ala bilərlər.




Kampaniyanın özəllikləri: kreditin məbləği - 15.000 manatadək, kreditin müddəti - 36 ayadək, illik faiz dərəcəsi – 2 faiz endirimlə / 25 faizdən başlayaraq, kredit 5000 manata qədər olduqda – zaminsiz, kreditin rəsmiləşdirilməsi komissiyasız. Kampaniya oktyabrın 18-dən 20-dək keçərlidir.

Müxtəlif ehtiyacların qarşılanması üçün nəzərdə tutulmuş nağd pul kreditini "Azərbaycan Beynəlxalq Bankı"nın bütün filiallarından almaq olar. Bunun üçün sadəcə şəxsiyyət vəsiqəsi ilə bankın filiallarına yaxınlaşmaq kifayətdir. Kredit rəsmiləşdirilən zaman müştəri avtoödəmə sisteminə qoşulmaqla aylıq kredit borclarının ödənişini banka gəlmədən rahat bir şəkildə həyata keçirə bilər.

"Azərbaycan Beynəlxalq Bankı"-nın məhsul və xidmətləri barədə məlumatları bankın 36 filial və 40 şöbəsindən, www.ibar.az internet səhifəsindən, 937 nömrəli Məlumat Mərkəzindən, həmçinin rəsmi facebook səhifəsindən əldə etmək olar.




# «Азербайджан и Беларусь имеют особые отношения»: встреча Александра Лукашенко с Октаем Асадовым




Новости Беларуси. Принципиальная позиция белорусской стороны заключается в усилении парламентского измерения в СНГ и других интеграционных структурах. Об этом заявил Президент Александр Лукашенко на встрече с председателем Милли Меджлиса Азербайджана, сообщили в программе Новости «24 часа» на СТВ.

Обозначены и другие направления сотрудничества. Глава парламента на нынешней неделе не первый высокий гость из Баку в Минске. Затронул глава белорусского государства и вопросы, которые обсуждались в Сочи на встрече лидеров стран-участниц СНГ. Александр Лукашенко, Президент Республики Беларусь:

Приятные азербайджанские дни в Беларуси. Совсем недавно мы эту тему обсуждали с министром обороны вашей страны. Затем у нас в разных формах состоялся обмен мнениями в Сочи. Мы довольно длительное время провели, обсуждая многие вопросы наших отношений. И сегодня – встреча с Вами.

В СМИ по разному интерпретируют мое высказывание по поводу Межпарламентской ассамблеи СНГ. Как будто белорусы за то, чтобы ее разогнать, хотя мы были инициаторами усиления роли Межпарламентской ассамблеи СНГ. А если она будет так работать, как сейчас, – что-то там обсуждать, – это хорошо, что встречаются, обсуждают, но должен быть эффект от этого. Мы предложили: надо усиливать Парламентскую ассамблею СНГ, если мы ее оставляем. Как усиливать, мы уже знаем. Потому что парламентаризм в мире известен давно. Формы и методы работы парламентов давно известны – выбирай любой и приспосабливай к Межпарламентской ассамблее СНГ.

Я думаю, что МПА СНГ должна иметь такое измерение, как контроль за принятыми решениями глав государств и правительств. У нас этого не хватает. И в этом плане возникает необходимость более тесного контакта с ведомствами, в данном случае СНГ.

Почему министру тому или иному, или руководителю совета министров иностранных дел, обороны, государственной безопасности не прийти и не доложить депутату, как действовать будем, основные угрозы, как выполняются те решения, которые приняты. Думаю и парламент должен обладать определенными функциями для принятия решений. Октай Асадов, председатель Милли Меджлиса Азербайджанской Республики:

Ваша политика – это социальная политика, вы думаете о народе, поэтому такие близкие отношения. Наш народ всегда за Вами следит. Когда Вы в прошлом году были в Азербайджане и Вас награждали самым высоким орденом – орденом Гейдара Алиева, Вы произнесли теплые слова об Азербайджане и азербайджанском народе. Это стимул углублять с Беларусью всесторонние отношения. Так и получается. Азербайджан и Беларусь имеют особые отношения.

За восемь месяцев этого года наши государства наторговали почти на сто миллионов долларов. Основная статья сотрудничества – совместная сборка сельскохозяйственной и грузовой техники. Только за десять последних лет в Азербайджане сделано около десяти тысяч тракторов «Беларус» и четыре тысячи автомобилей, автобусов и прицепов под маркой «МАЗ». В мае этого года в Минске был открыт торговый дом Азербайджана.

# Делегация Милли Меджлиса побывала в действующем в Минске торговом доме Азербайджана



Парламентская делегация, возглавляемая председателем Милли Меджлиса Огтаем Асадовым, познакомилась с деятельностью торгового дома Азербайджана в Минске.

Как сообщает АЗЕРТАДЖ, глава торгового дома Васиф Исмаилов отметил, что за короткий срок деятельности при помощи торгового дома Азербайджана из нашей страны в Белорусь было экспортировано около 100 тонн фруктов и овощей, 8 тысяч бутылок оливкового масла, 3 тысячи бутылок гранатового сока, более 1200 ящиков чая и другая продукция. Азербайджанская продукция уже выставлена на продажу в сетях самых крупных маркетов Белоруси. Спрос на азербайджанскую продукцию, привлекающую внимание местных покупателей из-за высокого качества, растет с каждым днем. Достигнуто соглашение по получению квоты и лицензии для повышения экспортных возможностей азербайджанских вин и другой продукции.

Делегации была предоставлена подробная информация. связанная с азербайджанской продукцией.

# Годовой товарооборот между Азербайджаном и Беларусью достиг 100 миллионов долларов

Годовой товарооборот между Азербайджаном и Беларусью достиг 100 миллионов долларов.

Информация об этом прозвучала на состоявшемся 17 октября в Баку на азербайджано-белорусском бизнес-форуме, организованном Фондом поощрения экспорта и инвестиций в Азербайджане (АЗПРОМО) при поддержке Министерства экономики. В мероприятии, наряду с официальными лицами Азербайджана и Беларуси, приняли участие около 100 предпринимателей, осуществляющих деятельность в области сельского хозяйства, промышленности, строительства, фармацевтики, ИКТ, туризма, консалтинга, финансов и др. Вице-президент АЗПРОМО Юсиф Абдуллаев проинформировал о мерах, осуществляемых в Азербайджане для развития ненефтяного сектора, усиления частного сектора, расширения экспорта, поощрения бренда Made in Azerbaijan и иностранных инвестиций, дальнейшего улучшения бизнес-среды и др. Он также коснулся азербайджано-белорусских экономических связей и возможностей дальнейшего сотрудничества.

Президент Национальной конфедерации организаций предпринимателей ( работодателей) Азербайджанской Республики (ASK) Мамед Мусаев отметил, что годовой товарооборот между Азербайджаном и Беларусью, увеличился и достиг 100 миллионов долларов. Президент ASK отметил расширение связей между предпринимателями двух стран, указал на значение созданного в Беларуси первого Торгового дома Азербайджана в развитии торгово-экономического сотрудничества.




Руководитель Торгово-промышленной палаты Беларуси Владимир Улахович подчеркнул, что его страна проявляет большой интерес к экономике Азербайджана, указал на широкие возможности сотрудничества в различных сферах экономики между двумя странами. Владимир Улахович отметил значение деловых встреч и бизнес-форумов с точки зрения выстраивания новых бизнес-связей, пригласил бизнесменов двух стран к активному сотрудничеству.

В рамках Торгово-промышленной палаты Беларуси был подписан меморандум о сотрудничестве между ASK и Торгово-промышленной палатой Беларуси. Мероприятие продолжилось двусторонними встречами между предпринимателями.

# Международный банк Азербайджана – уполномоченный банк Бакинского шопинг-фестиваля

Международный банк Азербайджана является уполномоченным банком второго шопинг-фестиваля, стартовавшего 15 октября в Баку.

Как сообщили АЗЕРТАДЖ в банке, на время проведения фестиваля 2 банковских офиса будут работать ежедневно с 10:00 до 22:00. Это департамент обслуживания клиентов (улица Низами, 67) и Насиминский филиал (улица 28 Мая, 21A).

Отметим, что подключение многих торговых мест к системе возмещения налога на добавочную стоимость облегчает задачу как туристам, так и местным покупателям. Иными словами, в местах, где отмечено название Baku Shopping Festival – Tax Free местные, так и иностранные граждане, сделавшие покупки на сумму свыше 100 манатов, имеют возможность получить обратно определенную часть налога на добавочную стоимость (НДС). Данная сумма достигается как наличными путем, так и переводом на банковский счет/межкарточным переводом.

Клиенты, сделавшие покупки в местах, обозначенных названием Baku Shopping Festival – Tax Free в рамках второго шопинг-фестиваля смогут с легкостью получить обратно списанный с них налог на добавочную стоимость в Международном банке Азербайджана. В период фестиваля указанные офисы будут ежедневно оказывать клиентам услуги обмена валют. Фестиваль продолжится до 15 ноября.

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI

Информацию о продуктах и услугах Международного банка Азербайджана, современного государственного банка страны, можно получить на официальном веб-сайте www.ibar.az , во всех 36 филиалах и 40 отделениях банка, позвонив в Информационный центр по короткому номеру 937, а также на официальной страничке банка в социальной сети Facebook.

# Глава Total: Соглашение ОПЕК+ нужно продлить до конца 2018 года

Соглашение стран ОПЕК и ряда нефтедобывающих стран (ОПЕК+) должно быть продлено минимум до конца 2018 года, считает глава французской Total Патрик Пуянне. «Если соглашение ОПЕК и стран вне ОПЕК будет эффективным, оно должно действовать минимум два года…. Когда в течение трех-четырех лет наблюдался избыток предложения на рынке, то требуется время для стабилизации нефтяного рынка»,- сказал Пуянне в ходе выступления на конференции Oil and Money.

Тем не менее он отметил, что наблюдает стабилизацию рынка. «Я думаю, что нефтяной рынок медленно стабилизируется», — сказал глава Total.

ОПЕК договорилась 30 ноября прошлого года в Вене о сокращении добычи на 1,2 миллиона баррелей в день с октябрьского уровня в целях стабилизации нефтяных цен. Одиннадцать не входящих в ОПЕК стран 10 декабря согласовали сокращение своей добычи суммарно на 558 тысяч баррелей, в том числе Азербайджан — на 35 тысяч баррелей в сутки и выполняет взятое обязательство. 25 мая 2017 года в рамках 172 заседания Совета министров ОПЕК страны-члены организации и не входящие в картель достигли договоренности о продлении срока сокращения добычи нефти до конца первого квартала 2018 года.

# PAŞA Bank "İnvestorlar yarmarkası"-nın baş sponsoru qismində çıxış edib

Azərbaycanın aparıcı korporativ bankı – PAŞA Bank 5-ci "İnvestorlar yarmarkası 2017"-nin baş sponsoru qismində çıxış edib. Oktyabrın 6-da Azərbaycan Mikromaliyyə Assosiasiyası (AMFA) tərəfindən keçirilən tədbirin əsas məqsədi ölkənin regionlarında kiçik və orta biznesin inkişafının dəstəklənməsi üçün xarici investorların cəlb edilməsi olmuşdur.

Bu il "Mikromaliyyənin gələcəyi: çətinliklər və imkanlar" adlı konfransda iştirak etmək üçün həm özəl, həm də dövlət sektorundan 100-dən artıq nümayəndə dəvət olunmuşdur. Tədbirə dəvət olunanlar arasına Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının, Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Beynəlxalq maliyyə korporasiyasının, özəl bankların, bank olmayan kredit təşkilatlarının, investisiya şirkətlərinin və digər yerli və beynəlxalq təşkilat və strukturların nümayəndələri daxil idi.

"Mikromaliyyələşdirmə sektorunun gələcəyi" və "Maliyyə texnologiyaları erası" adlı işçi sessiyaları çərçivəsində konfrans iştirakçıları, həmçinin dəvət olunmuş mütəxəssislər hal-hazırda bazarın oyunçularının üzləşdiyi aktual problemləri və çağırışları, habelə dövlətin tənzimləyici orqanlarının sektorun inkişafındakı rolunu müzakirə etmişlər. Ekspertlər fəallığın stimullaşdırılması üçün zəruri olan bir sıra tədbirlərin, o cümlədən iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı kontekstində bazar oyunçularının fəaliyyətində innovativ təcrübələrin tətbiqinin müzakirəsinə xüsusi diqqət yetirmişlər.

Tədbir çərçivəsində həmçinin AMFA-nın təsis etdiyi xüsusi mükafatların sahiblərinin adları çəkilmiş və laureatların təntənəli təltif etmə mərasimi keçirilmişdir.

"İlin peşəkarı" nominasiyasında mükafatın sahibi AMFA-nın İdarə Heyətinin üzvü, PAŞA Bankın Baş kommersiya inzibatçısı Melih Mengü seçilmişdir.

# Azercell-in korporativ abunəçiləri arasında keçirilən I Futbol Turnirinin qalibi bəlli oldu



Azercell Telekom idmanın inkişafına, eləcə də sağlam həyat tərzinin təbliğinə hər zaman böyük önəm verərək, həm öz müştəriləri və əməkdaşları arasında, həm də şirkətin korporativ sosial məsuliyyət layihələrində bu istiqaməti inkişaf etdirib.

Öz müştəriləri arasında həm işgüzar, həm də dost münasibətlərini möhkəmlətmək, onların idmana qarşı həvəsini artırmaq və asudə vaxtlarını təşkil etmək üçün Azercell Telekom daha bir maraqlı təşəbbüslə çıxış edib və korporativ abunəçiləri arasında təşkil etdiyi I Futbol Turnirini uğurla başa vurub. Turnirin oktyabrın 11-də keçirilən üçüncü yer uğrunda oyununda və eləcə də final turunda azarkeşlər maraqlı və gərgin mübarizənin şahidi olublar. "Gilan" və "Kapital Bank" komandaları uçüncü yer uğrunda mübarizə aparıblar. Nəticədə, "Kapital Bank" komandası qalib gəlib. Hər kəs tərəfindən maraqla gözlənilən final oyununda isə STP (Sumqayıt Texnologiyalar Parkı) və Azeri M-İ komandaları yarışıblar. Qızğın oyun nəticəsində 6:2 hesabla STP-ni təmsil edən komanda yarışın qalibi olub. Qaliblər Azercell-in prezidenti Vahid Mürsəliyev tərəfindən turnirin kuboku və medallarla təltif olunub, dəyərli hədiyyələr alıblar.

Məlumat üçün bildirək ki, sentyabrın 8-dən başlayan futbol turnirində 12 komanda öz gücünü sınayıb. Turnirdə "Kapital Bank", "North West Construction", "Xəzər Media", "Unibank", "Sumqayıt Texnologiyalar Parkı", "Gilan Holding", "TOPAZ", "Azərtexnolayn", "Azeri M-İ", "AA Services", "Coca-Cola" kimi nüfuzlu şirkətlərin nümayəndələri iştirak ediblər.

# Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının inkişafı üzrə konsepsiya ictimaiyyətə təqdim olunacaq




Oktyabrın 19-da Bakıda keçiriləcək "Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı – inkişaf perspektivləri" adlı birinci beynəlxalq konfransda Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının inkişafı üzrə konsepsiya dövlət və özəl sektorun partnyorluq prinsiplərinə əsaslanan innovativ dövlət startapı kimi ictimaiyyətə təqdim olunacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkil etdiyi beynəlxalq konfransın işində Avropa İttifaqı və Beynəlxalq Bankın, BMT-in İnkişaf Proqramı, Rusiya, Estoniya, İngiltərə, Polşa, İsveçrə, Çin və digər ölkələrin nümayəndələri iştirak edəcək.

"B.EST Solutions" şirkətindən AZƏRTAC-a bildirilib ki, konfransda elektron imzanın tətbiqi və qarşılıqlı tanınması, ixrac prosedurlarının sadələşdirilməsi, qeyri-rezidentlərə elektron imzanın verilməsi, şirkətin distant yaradılması və idarə edilməsi, eləcə də elektron kommersiya sahəsində yeni həllər mövzusu müzakirə olunacaq.

Qeyd edək ki, Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı – elektron tranzaksiyaların hüquqi qüvvə daşıyacağı və elektron ticarətin iştirakçılarının portalda qeydiyyatı prosedurunun hüquqi şəxslərin reyestri vasitəsilə dövlət tərəfindən təsdiqlənəcəyi elektron ticarətin innovativ platformasıdır.

Konfrans işini "Rəqəmsal Ticarət Qovşağı beynəlxalq ticarət və Azərbaycanın iqtisadi inkişafının drayveri kimi və transsərhəd ticarətin innovativ həlləri" və "Rəqəmsal Ticarət Qovşağı - dövlət və özəl sektorlar arasında əməkdaşlıqda maksimum sinerjinin təmin edilməsi üçün vasitə kimi" mövzularında müzakirə panellərində işini davam etdirəcək.

"Asan İmza" mobil elektron imzanın operatoru və Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının partnyoru hesab edilən "B.EST Solutions" Azərbaycan şirkətinin rəhbəri Yana Krimpe birinci müzakirə panelinin moderatoru kimi çıxış edəcək. İkinci müzakirə panelinin moderatoru isə "Azexport.az" portalının rəhbəri Zaur Qardaşov olacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı əsasında xarici ticarət əməliyyatlarının genişləndirilməsi və Rəqəmsal Ticarət Qovşağı (Digital Trade Hub of Azerbaijan) qismində "Azexport.az" portalının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər görülür. Bu Sərəncama əsasən, "Asan İmza" dünya üzrə Azərbaycanın bütün diplomatik nümayəndəliklərində xarici vətəndaşlara təqdim olunacaq. Bu Sərəncamın davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli Fərmanı ilə "www.azexport.az" internet portalı haqqında "Əsasnamə" təsdiqlənib. Əsasnaməyə görə, portaldan gücləndirilmiş elektron imza olan "Asan İmza" vasitəsilə qeydiyyatdan keçmiş istifadəçilər, Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatda olan şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibi və imzalanması, eləcə də xidmətlərdən istifadə, ümumiyyətlə portalda həyata keçirilən bütün digər prosedurlar gücləndirilmiş elektron imza olan

"Asan İmza" vasitəsilə reallaşdırılır.

# Azercell-in prezidenti qızıl medalla təltif olundu



Vahid Mürsəliyev "Ən yaxşı vətənpərvər müəssisə rəhbəri" kimi mükafatlandırıldı.

Azercell Telekom MMC-nin prezidenti Vahid Mürsəliyev ölkədə fəaliyyət göstərən ən aparıcı şirkətlərdən birində səmərəli rəhbərlik fəaliyyətinin nəticəsi kimi daha bir mükafata layiq görülüb. Şirkət prezidenti "Avropa Nəşr Mətbuat Evi" tərəfindən "Ən yaxşı vətənpərvər müəssisə rəhbəri" kimi qızıl medal və diplomla təltif olunub. Mükafatı Vahid Mürsəliyevə "Avropa Nəşr Mətbuat Evi"-nin rəhbəri, Əlyazmalar İnstitutunun elmi işçisi, Qarabağ Müharibəsi veteranı, jurnalist və yazıçı Şöhrət Səlimbəyli təqdim edib. Ş.Səlimbəyli Azercell-in Azərbaycanın rabitə sektorunun inkişafına verdiyi töhfələrdən, həyata keçirdiyi uğurlu layihələrin əhəmiyyətindən söz açıb. Vahid Mürsəliyev də öz növbəsində mükafata layiq görüldüyünə görə Şöhrət Səlimbəyliyə öz minnətdarlığını bildirib: "Azercell fəaliyyətə başladığı gündən abunəçilərinə yüksək keyfiyyətli xidmət göstərməyi qarşısına məqsəd qoyub. Bu 21 il ərzində biz hər zaman müştəri məmnuniyyətini üstün tutduq və bu keyfiyyətimiz bizi Azərbaycan rabitə bazarının lider mobil operatoru etdi. Təqdim etdiyiniz bu mükafatda 4,5 milyonluq abunəçiyə xidmət göstərən bütün Azercell ailəsinin payı var".

Məlumat üçün bildirək ki, "Avropa Nəşr Mətbuat Evi"nin mükafatçıları sırasında Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, əməkdar incəsənət xadimi, professor Çingiz Fərzəliyev; Azərbaycan Milli Elmlər Akademiyası Genetik Ehtiyatlar İnstitutunun elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Gövhər Rasizadə, "Respublika" qəzetinin baş redaktoru, filologiya elmləri doktoru, professor Teymur Əhmədov, AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun İqlim və Aqroiqlimşünaslıq şöbəsinin müdiri, Coğrafiya elmləri üzrə fəlsəfə doktoru Xəyyam Rəhimov, AMEA Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, Naxçıvan Dövlət Universitetinin Memarlıq və Mühəndislik fakültəsinin dekanı, texnika üzrə elmlər doktoru Cavanşir Zeynalov və digər tanınmış elm və mədəniyyət xadimləri var.

# Azercell Tələbə Təqaüdü 2017 proqramı çərçivəsində tələbələrlə görüşdü



Azercell Telekom MMC Tələbə Təqaüdü 2017 proqramı çərçivəsində Bakı və bölgələrdə yerləşən ali təhsil ocaqlarında təhsil alan tələbələrlə görüş keçiriblər. Şirkətin İnsan Qaynaqları Departamentinin əməkdaşları tələbələrə Təqaüd proqramı haqqında məlumat verib, onların suallarını cavablandırıblar. Bakıdakı təhsil ocaqları ilə yanaşı, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Aqrar Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiyalar Universiteti və Mingəçevir Dövlət Universitetinin 1000-ə yaxın tələbəsi ilə görüş onlar üçün səmərəli olub.

Məlumat üçün bildirək ki, Azercell Telekom sentyabrın 15-dən bütün tələbələr üçün növbəti Təqaüd Proqramına start verib. Öz sahəsində peşəkar olmaq, gələcək karyerası üçün təməl yaratmaq istəyən gənclər Təqaüd Proqramına müraciət edə bilərlər. Proqramın məqsədi müvəffəqiyyətlə təhsil alan və fərqlənməyi bacaran tələbələrə xüsusi qayğı nümayiş etdirmək, yüksək potensiala malik gənclərin peşəkar kimi formalaşmasına dəstək olmaqdan ibarətdir.

Proqrama qəbul edilən istedadlı tələbələr cari təhsil müddətinin sonuna qədər Azercell şirkəti tərəfindən müəyyənləşdirilmiş təqaüd alacaqlar.

Bununla yanaşı, bu tələbələrin karyera baxımından inkişafı üçün şərait yaradılacaq. Belə ki, onlar telekommunikasiya sahəsi haqqında biliklərini artırmaq, şirkətin korporativ tədbirlərində və sosial fəaliyyətində iştirak etmək, müxtəlif təlimlərə qatılmaq və şirkətdə təcrübə keçmək imkanı əldə edəcəklər.

Müraciət etmək üçün tələbələr şirkətin rəsmi veb səhifəsinə (www.azercell.jobs) daxil olub qeydiyyatdan keçməlidirlər. Ərizələr yalnız onlayn formada qəbul edilir.

# Azercell "Məzun- 2017"-də tələbələrə dəstək oldu



Azercell Telekom MMC növbəti dəfə tələbələrə dəstək olub. Şirkətin İnsan Qaynaqları Departamentinin əməkdaşları oktyabrın 14-də Təhsil Nazirliyinin dəstəyi, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Dövlət İqtisad Universitetinin birgə təşkilatçılığı ilə keçirilən ənənəvi "Məzun-2017 əmək yarmarkasında iştirak ediblər.

Yarmarkada öz fəallığı ilə seçilən Azercell-in stendi tələbələrin böyük marağına səbəb olub. Şirkət təmsilçiləri tələbələri maraqlandıran sualları cavablandıraraq, Azercell-in Tələbə Təqaüdü və Təcrübə Proqramı haqqında onlara məlumat veriblər. Eyni zamanda, Azercell-də karyera qurmaq istəyən gənclərə məsləhətlər verilib və onların müraciətləri üçün xüsusi elektron ünvan yaradılıb.

Qeyd edək ki, Azercell Telekom daim istedadlı gənclərə karyera qurmaqda yardımçı olur. Son illər ərzində mütəmadi olaraq Azercell-in təşəbbüsü ilə şirkət tərəfindən Karyera Günləri təşkil edilir. Hər il baş tutan bu cür tədbirlər zamanı şirkətdə işləmək istəyən istedadlı gənclərlə görüşlər keçirilir, Azercell-in fəaliyyəti, iş prinsipləri barədə ətraflı məlumat verilir.

Məlumat üçün bildirək ki, əmək yarmarkasının keçirilməsində əsas məqsəd tələbə-məzunlara aldıqları ixtisaslar üzrə əmək bazarında olan tələbat haqqında məlumat vermək, işəgötürənlərlə onların bilavasitə qarşılıqlı ünsiyyətini təşkil etmək və bununla da işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verən ixtisaslı kadrların seçiminin aparılmasına imkan yaratmaq, eyni zamanda, iş axtaran vətəndaşların da layiqli işlə təmin olunmalarına köməklik göstərməkdir.







## Azərbaycana gələn turistlərin sayında 21 faiz artım qeydə alınıb

İlin əvvəlindən bəri Azərbaycana gələn turistlərin sayında 21 faiz artım qeydə alınıb.

Bunu jurnalistlərə açıqlamasında mədəniyyət və turizm nazirinin müavini Nazim Səmədov deyib.

Nazir müavininin sözlərinə görə, bu müddətdə ölkəmizə 2 milyon 71 min xarici vətəndaş gəlib. Xarici turistlər arasında Rusiya, İran və ərəb ölkələrindən gələnlər üstünlük təşkil edir.

Artım dinamikası daxili turizmdə də qeydə alınıb. Daxili turizm bu ilin 9 ayı ərzində 20 faiz artıb. Yay aylarında - iyun, iyul və avqustda Azərbaycanın bölgələrində 860 min turist istirahət edib. Daxili və xarici turist sayı 3 milyon nəfərdən çoxdur.

## Kompüter və elektron məhsulların istehsalı 35,0 faiz artıb



2017-ci ilin yanvar-sentyabr aylarında kompüter və elektron məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində 158,9 milyon manatlıq məhsul istehsal olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kompüter və elektron məhsulların istehsalı 35,0 faiz, elektrik avadanlıqlarının istehsalı isə 65,7 faiz artıb.

Dövlət Statistika Komitəsindən bildirilib ki, doqquz ay ərzində əvvəlki illə müqayisədə maye və qazların məsrəfinin və ya səviyyəsinin ölçülməsi üçün cihazların istehsalı 28,5 faiz, elektrik paylayıcı və nəzarət cihazlarının hissələrinin istehsalı 2,0 dəfə, 1000 V-dək gərginlik üçün hesablanmış elektrik cərəyanı naqillərinin istehsalı 36,2 faiz artıb.

# REKLAM MƏTNİNİN JANRLARI

Reklam mətninin janrları ona düzgün identifikasiya etməyə imkan verən spesifik üslub fərqlərinə malikdir. Tarixən formalaşmış janrlar reklam informasiyasının daşıyıcılarının fiziki və kulturoloji xüsusiyyətləri ilə əlaqədardır. Daşıyıcının növü janrı formalaşdırır və reklam xəbərinin ifadə edildiyi üslubu müəyyən edir. Beləliklə, reklam mətninin bir neçə janrını ayırmaq olar:

1. Reklam janrının ən iri növləri kitab, broşüra və qəzetdir (jurnaldır). Onlar oxucunu hansısa böyük şirkətin nailiyyətləri ilə tanış etməyə, bununla belə onu xüsusi terminologiya ilə yüklənməyə imkan verən elmi-kütləvi üslubda verilir.

2. Səyyar vərəqə promoutor tərəfindən yayılan, bilavasitə potensial alıcının əlinə verilən, ya da poçt qutuları üzrə daşınan vərəqədir. Vərəqələrdəki üslub danışıq dilinə yaxın tutulur. Əgər qışqırıqdan, emosional cəhətdən yüksək anlardan və imperativ ifadələrdən istifadəyə diqqət yetirilməzsə, üslub adi neytral halını alır.

3. Rubrika (sərlövhə) reklamı. Xırda hərflərlə doldurulan saysız-hesabsız sütunlar psixoloji cəhətdən insanı sıxır. Axtarış obyektlərinin kəskin zəruri olanlarını burada axtarmağa cəhd etmək lazımdır. Ona görə də belə yanaşma əksər hallarda yalnız hüquqi xidmətlərə münasibətdə özünü doğruldur. Lakin əyalətlərdə təzəcə "ayaq üstə duran" kiçik firmalar üçün qənaət çox vacibdir, iri formatlı, tamrəngli poliqrafiya isə dərhal bir neçə nəşrdə bəzilərinə əlçatandır. Belə bir şəraitdə oxşar elanların fasiləsiz axınından rubrika (sərlövhə) reklam xəbərini ayırmağa və bununla da böyük miqdarda müştəriləri cəlb etməyə imkan verən kopirayterin sənəti tələb olunur.

4. Kiçik reklam janrları. Mütəxəssislər kiçik reklam janrlarına açıqcaları, əlavə vərəqləri, kiçik proqramları, dəvətnamələri, təqvimləri və vizitkaları aid edirlər. Onlar içərisində əlavə vərəq daha informativ formada çıxış edir, çünki qalan janrlar çox zaman loqotiplə uyğunlaşmada yalnız sloqan və ya devizin yerləşməsi üçün yararlıdır. Çox zaman



istedadlı kopirayterlər əlavə vərəqlərdən gizli reklamı, reklam sənədinin uzun müddət öyrənilməsinə sövq edən və əmtəəyə xoş münasibətin yaranmasına kömək edən əlavə informasiyanı yerləşdirmək üçün uğurla istifadə edirlər.

5. Sloqan və deviz. Məlumdur ki, sloqan potensial alıcılara çağırış kimi müraciət, reklam şüarıdır. Deviz (ing. "motto", "sloqan" yox) qısa kəlamdır ki, bu da özündə təşkilatın fəaliyyət ideyasını əks etdirir. Adətən, deviz firmanın rəhbərliyi üçün kredo rolunu oynayan aforizm şəklində tərtib olunur. Sloqan bütün reklam kampaniyasının emosional mənasını daşıyır və onun gedişində istehlakçıların əmtəəyə müəyyən (pozitiv) münasibətinin yaradılması üçün alət kimi bu əmtəənin imicinin formalaşmasında iştirak edir. Bu səbəbdən çağırış əks-səda ifadəsi kimi tərtib edilən sərlövhəyə və sonluğa daha uyğun gəlir.

6. Loqotip şirkətin prinsiplərini simvolizə edən və onun identifikasiya edilməsi üsulu kimi çıxış edən qrafik təsvirdir. Loqotip heç də həmişə özündə yazılara malik deyil, lakin bəzi hallarda bu, mümkündür. Ən tipik hal loqotipin mətnlə müşayiət edilməsinə ehtiyac olan zaman sayılır.

7. "Zakliçka" (təbiətə və ya digər hadisələrə müraciət olunan kiçik şeir, mahnıdır) şifahi reklam janrıdır. Lakin bəzən kağız və ya elektron daşıyıcılarda hər hansı bir ticarət şəbəkəsinə gəlməyə çağırışlar yaranır. "Zakliçkalar" bütün digər sözlərdən və söz birləşmələrindən da sürətlə mənəvi aşınmaya məruz qalır. Hazırda artıq "yalnız bizdədir!", "tələsin" və s. çağırışlar arxaizm kimi görünür. İndi hər hansı bir hadisə haqqında xəbərdar edilmə faktiki çağırış sayılır ("satılıb qurtarır", "endirimlər" və s.)

8. Məktub, yaxud yazı. Məktubun (yazının) hər hansı bir səbəbə görə göndərilməsi arzuediləndir. Buna görə də məktub (yazı) üçün bayram günlərini seçərək onun göndərilməsini həyata keçirmək daha məqsədəuyğundur.

9. Preyskurant mövcud olan əmtəələrin və malların buraxılış qiymətlərinin siyahısıdır. Preyskurantlar adətən reklam kimi sənət qismində ən az istismar olunur. Potensial alıcı hər hansı bir ticarət şəbəkəsinin və ya ticarət şirkətinin çeşidləri ilə tanış olmağa səy göstərərək, aşağı ehtimalla raklam buketlərini tələb edir. Gələcək alıcının özü üçün preyskurant sifariş etməsi ehtimalı daha böyükdür. Hər hansı bir ticarət şirkətinin marketinq xidməti preyskurantı elektron (özü də yalnız "Exsel" yox, həm də "Word" formatında) və ya çap şəklində poçtla göndərmək imkanına malik olmalıdır. Əkbəttə, preyskurantı ona paradoksal ümumxalq rəğbəti səbəbindən gizli reklamla təchiz etmək lazımdır.

10. Puf reklamı (ing. "puff") yalan, mübaliğəli, şişirdilmiş reklamdır, yəni həqiqətlə əlaqəsi az olan xəbərdir və potensial alıcının diqqətini cəlb etmək və bu və ya digər ticarət şəbəkəsinin və başqa ticarət markasının və s. xeyrinə seçim etmək zəruriliyini alıcıya təlqin etmək məqsədi güdür. Puf reklam haqsız və şübhəli reklam kimi qiymətləndirilməlidir. Lakin puf ustaları tərəfindən onun vaxtilə insanın davranışını istiqamətləndirməyə imkan verən əhəmiyyətli bir xassəsi açılmışdır. Bu xassə maraq, hər şeyi bilmək həvəsidir.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500